Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Azərbaycan KİV sektorunda yeni texnologiyaların tətbiqi məsələləri daha bir beynəlxalq müzakirədə...

## İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

**Azərbaycanda ənənəvi medianın müasir standartlara uyğun olaraq inkişaf etməsi üçün konkret tədbirlər həyata keçirilir. Heç şübhəsiz, çap mediasının yaşaması, inkişaf etməsi üçün saysız tədbirlər görülür. Əlbəttə, müasir informasiya-texnologiyalarının ənənəvi media sahəsində tətbiqi perspektivləri son zamanlar intensiv olaraq müzakirə ediilir.**



Burada Medianın İnkişafı Agentliyi xüsusi rol oynayır. Mayın 26-da ADA Universitetində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı və beynəlxalq ekspertlərin iştirakı ilə "Ənənəvi mediadan yeni mediaya keçid: Qlobal trendlər və hədəflər" mövzusunda keçirilən dəyirmi masa dediklərimizə əyani misaldır.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun moderatorluğu ilə keçirilən dəyirmi masada Türkiyə Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti Aygün Attar, Türk Dövlətləri Təşkilatının mətbuat katibi Qəhrəman Halisçəlik, "Sabah" qəzetinin əməkdaşı Mahmud Övür və "Star" qəzetinin köşə yazarı Ardan Zentürk çıxış edib.

**MEDİA Agentliyi çap mediasının onlayn formata keçidinin təmin edilməsi məqsədilə...**

Media uzmanlarının, mütəxəssislərinin iştirakı ilə keçirilən dəyirmi masada çap mediasının müasir inkişaf yolları incələnib.

Dəyirmi masada Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycanda media sahəsində aparılan islahatlar barədə danışıb. Bildirib ki, çağdaş Azərbaycan oxucusunun keyfiyyətli kontentlə təmin olunması üçün bütün digər media subyektləri kimi qəzetlər də inkişaf etməlidir. Vurğulanıb ki, MEDİA Agentliyi çap mediasının onlayn formata keçidinin təmin edilməsi məqsədilə Azərbaycanda ilk dəfə olaraq müxtəlif qəzet və dərgilərin elektron versiyasının yerləşdiriləcəyi "E-köşk" platformasının yaradılması prosesini başa çatdırmışdır. İcraçı direktor bildirib ki, dövlət dəstəyinin məqsədi çap mediasının yalnız biznes strukturu kimi formalaşmasına yardım etmək deyil, texniki imkanlar baxımından onlayn media ilə bərabər olmayan rəqabət şəraitində ciddi fikir tribunası kimi qəzetlərin ayaqda qalmasına kömək göstərməkdir. Başqa sözlə desək, dövlət yazılı medianın timsalında Azərbaycan dilinin inkişafına, ənənəvi publisistik düşüncənin yaşamasına və eyni zamanda cəmiyyətdə plüralizmin möhkəmlənərək sərhədlərinin genişlənməsinə dəstək göstərir.

Türkiyə Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti Aygün Attar 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın qalib mediasının önündə yeni vəzifələrin olduğunu bildirib, qalib medianın inkişafını təmin etməyin vacibliyini vurğulayıb. Dəyirmi masada müzakirəyə qatılan Türkiyədə akkreditasiyadan keçmiş beynəlxalq media subyektlərinin təmsilçiləri medianın müasir trendləri ilə bağlı fikirlərini bildirib və Türkiyə təcrübəsindən çıxış edərək rəqəmsal media mühitinə keçidlə bağlı düşüncələrini bölüşüblər.

**MEDİA çap medianın inkişaf etdirilməsinə çalışır...**

Məlum olduğu kimi, dəyirmi masada Azərbaycanda müasir ənənəvi medianın imkanlarının yaxşılaşdırılması və müasir informasiya texnologiyalarının ənənəvi media sahəsində tətbiqi perspektivləri barədə geniş bəhs edilib. Bəli, MEDİA çap medianın inkişaf etdirilməsinə çalışır və müasir sivilizasiyanın böyük bir nailiyyəti kimi çap medianın inkişafında ciddi maraqlıdır. Qurumun amalı odur ki, həm də ciddi bir fikir tribunası kimi çap mediası yaşasın, çünki dilimiz, ənənəvi publisistik düşüncə burada formalaşır.

**"Yeni media mühitinin özünün öz tələbləri var"**

Media üzrə ekspert Müşfiq Ələsgərli "Bakı-Xəbər"ə şərhində bildirdi ki, Azərbaycanda medianın inkişaf etdirilməsi üçün silsilə mühüm addımlar atılır: "Bunlara biz qanunvericiliyin təkmilləşdirilməsini, medianın iqtisadi müstəqilliyinin yaradılmasını, yardımların təşkil olunmasını göstərmək olar. Amma bütün bunlarla yanaşı paralel şəkildə aparılmalı olan çox mühüm məsələlərdən biri media peşəkarlığının artırılmasıdır. Xüsusi olaraq ənənəvi medianın yeni media mühitinə transfer edilməsi məsələsinin başa çatması lazımdır. Bu proses uzun müddətdir ki, başlayıb. Yəni ənənəvi mediadan yeni mediaya keçid prosesi artıq 20 ilə yaxındır ki, gedir. Artıq əksər ölkələrdə bu proses tamamlanıb. Amma hələ təəssüf ki, Azərbaycanda transfer məsələsi tamamlanmayıb. Bu sahədə ciddi şəkildə probelmlər, boşluqlar mövcuddur. Bunlar nədən ibarətdir? Bizdə ənənəvi medianın yeni mediaya mühitinə transferi deyiləndə əsasən hansısa KİV qurumunun internet üzərindən bir veb səhifəsinin yaradılması, KİV-lərin istehsal etdiyi məhsulların paralel şəkildə həmin internet saytlarında yerləşdirilməsi kimi anlaşılır. Amma əslində yeni media mühitinə transfer etmək bu deyil. Yeni media mühitinin özünün öz tələbləri var və burada söhbət termin olaraq , korvengensiya olunmuş media tiplərindən gedir. Bu korvengensiya olunmuş media tiplərində söhbət təkcə hansısa KİV subyektinin VEB səhifəsinin açılmasından getmir. Ümulikdə yeni media quruluşuna uyğun olaraq mətn tərtibatından başlamış multimedia texnologiyalarından istifadə və çoxsaylı bu cür məsələlər var ki, bunların hamısından istifadə edilməsi tələb olunur..."

**"Bu yeni bir addımdır və alqışalayiqdir"**

ADA Universitetində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı və beynəlxalq ekspertlərin iştirakı ilə "Ənənəvi mediadan yeni mediaya keçid: Qlobal trendlər və hədəflər" mövzusunda keçirilən dəyirmi masanın böyük əhəmiyyətini vurğulayan M. Ələsgərlinin sözlərinə görə, qurumun bu addımı alqışa layiqdir. M.Ələsgərli vurğuladı ki, bu addım olduqca əhəmiyyətlidir: "Bu məsələ sözügedən dəyirmi masada beynəlxalq ekspertlərlə müzakirə edildi. Bunun böyük əhəmiyyəti var və çox gərəkli məsələdir. Bu yeni bir addımdır və alqışalayiqdir. Agentliyin çap mediasının onlayn formata keçidinin təmin edilməsi məqsədilə keçirdiyi dəyirmi masa təqdirəlayiqdir. Hesab edirəm ki, bu sahədə yerli media qurumlarının rəhbərləri, ekspertlərlə, jurnalistlərlə də təlimlərin, seminarların keçirilməsinə ehtiyac var. Bu sahədə yeni bilgələr ortaya qoyulsun və bizim KİV subyektləri tərəfindən əxz olunsun...Mən Media Agentliyinin bu addımını alqışlayıram. Prosesin daha da sürətlənməsinə ehtiyac var. Bu istiqamətdə çox saylı təlimlərin, seminarların keçirilməsi vacibdir. Çünki bizdə yeni media mühitinə transferlə bağlı ciddi problemlərin bir qismi də ondan ibarətdir ki, bu prosesləri bilən mütəxəssislərin sayı azdır. Bu prosesin sürətlənməsinə ciddi zərurət var. Biz də öz əlimizdən gələn töhfəni verə bilərik"- deyə M.Ələsgərli qeyd etdi.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**